



# Silsilə tədbirlər keçiriləcək

**Xocalı soyqırımının 30-cu ildönümü ərəfəsində Avropa Azərbaycanlıları Konqresinin sədri Sahil Qasımov "Respublika" qəzetinə müsahibə verib. Soyqırımı həqiqətlərinin Avropa xalqlarına çatdırılması istiqamətində həyata keçiriləcək tədbirlərə aydınlıq gətirən diaspor rəhbəri, tarixi düşmənlərimizin dünyada apardığı məkrli siyasətə cavab verməyin yolları, o cümlədən bu sahədə Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyət proqramının həyata keçirilməsi ilə bağlı bir sıra sualları cavablandırıb. Həmin müsahibəni təqdim edirik:**

**– Sahil müəllim, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının otuzuncu ildönümü haqqında imzaladığı sərəncama əsasən ölkəmizdə və dünyanın müxtəlif ölkələrində çoxsaylı tədbirlərə start verilib. İlk öncə, istərdik ki, Avropa ölkələrində Xocalı soyqırımı kampaniyası çərçivəsində görülmüş işlər barədə məlumat verəsiniz.**

– Xocalı soyqırımının dünyaya tanıdılması, ümumiyyətlə, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspora təşkilatlarının qarşısında duran ən ümdə vəzifələrdən biridir. Təbii ki, Xocalı qətliamının bəşəri cinayət və Azərbaycan xalqına qarşı həyata keçirilmiş soyqırımı aktı kimi tanınması üçün indiyədək Avropada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları ardıcıl və koordinasiyalı tədbirlər baş tutub. İlk öncə onu qeyd etmək istəyirəm ki, "Xocalıya ədalət" kampaniyasına ilk dəfə 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Bu proses hər il həm Azərbaycan diaspor təşkilatlarının xətti ilə, həm də digər resurslardan istifadə olunmaqla ardıcıl olaraq davam etdirilir.

"Xocalıya ədalət" kampaniyası çərçivəsində Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə hər il müxtəlif səpkili tədbirlər həyata keçirilir. Erməni vəhşiliyi və vandalizm aktı ilə bağlı uzun illərdir Avropa ölkələrinin parlamentində, siyasi partiyalarda, Holokost muzeylərində, beynəlxalq institutlarda səmərəli görüşlər təşkil edilir. Ötən il Avropa Azərbaycanlıları Konqresinin rəhbəri kimi, BMT-nin 58-ci sessiyasında çıxış edərək, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı şəhərində XX əsrin ən qəddar soyqırımı aktının həyata keçirilməsi tarixi faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırıldı. Belə bir bəşəri cinayətə hüquqi, siyasi qiymət verilməsi tələb edildi. Bununla yanaşı, hər il Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Avropanın bir çox ölkələrinin parlament binalarının qarşısında etiraz aksiyaları, flaşmoblar, rekviem simfonik konsertlər keçirilmişdir. "Xocalıya ədalət" kampaniyası çərçivəsində Avropanın aparıcı televiziya və KİV-lərində faciə ilə bağlı dolğun və əhatəli informasiyalar yayımlanmışdır. Təbii ki, indiyədək həyata keçirilmiş tədbirlərin nəticəsində dünyanın bir çox ölkələrinin parlamentləri Xocalı faciəsini soyqırımı aktı kimi qəbul etmişdir.

Əlbəttə, qarşıdan Xocalı soyqırımının 30-cu ildönümü gəlir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı sərəncam imzalayaraq dünyanın müxtəlif ölkələrində silsilə tədbirlərin keçirilməsi ilə bağlı qarşımızda duran vəzifələrin detallarını açıqlayıb.

**– Sahil müəllim, Avropa Azərbaycanlıları Konqresi bu il Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı nə kimi tədbirlər keçirməyi planlaşdırıb?**

– Avropa Azərbaycanlıları Konqresi olaraq Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 30-cu ildönümü ilə bağlı imzaladığı sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi üçün bir sıra silsilə tədbirlər nəzərdə tutmuşuq. Artıq Avropanın bir sıra ölkələrində Xocalı soyqırımının ildönümü və anma mərasimləri, faciənin soyqırımı kimi dünya ictimaiyyətinə çatdırılması ilə əlaqədar tədbirlər keçirilir. Əsas məqsədimiz yerli ictimaiyyətin diqqətini bu faciəyə yönləndirməklə, ermənilərin son iki əsrdə xalqımıza və torpaqlarımıza qarşı həyata keçirdikləri işğalçılıq və soyqırımı siyasətini geniş auditoriyalara çatdırmaqdır. Bununla yanaşı, yerli kanallarda Xocalı soyqırımını əks etdirən filmlərin nümayişi, rəsmi orqanlara müraciətlər də apardığımız kampaniyanın tərkib hissəsidir.

Qeyd edim ki, son illərdə tədbirlərin əksəriyyəti qapalı məkanlarda deyil, daha çox ictimaiyyətə açıq yerlərdə mitinq, yürüş formasında təşkil edilib. Bu il də belə tədbirlərin keçirilməsi proqramımızda yer alıb. Təbii ki, ermənilərin söz sahibi olduğu bir sıra ölkələrdə tədbirlərimizin keçirilməsində qarşıdurmalarla da üzləşirik. Bu baxımdan düşünürəm ki, Xocalı soyqırımını tək fevral ayında deyil, ilboyu müxtəlif tədbirlərlə gündəmdə saxlamalıyıq. Ermənilər 100 ildən çox zaman kəsiyində qondarma "erməni soyqırımı"nı ilboyu diqqətdə saxlamağa çalışırlar. Biz də bu yolda ardıcıl olaraq mübarizə aparıb, Xocalı faciəsini dünyada soyqırımı aktı kimi tanıtdırmalıyıq.

**– Çox doğru dediniz ki, hər il ermənilər dünyada Türkiyəyə qarşı qondarma "erməni soyqırımı"nı gündəmə gətirirlər. Bu iftiraların qarşısının alınmasında Avropada fəaliyyət göstərən Azərbaycan-Türkiyə diasporlarının birgə koordinasiyası varmı?**

– Sirr deyil ki, ermənilər "uydurma soyqırımı"n tanıdılması istiqamətində uzun illərdir iş aparırlar. 2015-ci ildə "uydurma erməni soyqırımı"nın dünya dövlətləri tərəfindən tanınması üçün erməni diaspor təşkilatları və lobbi qurumları dayanmadan iş görürlər. Biz öz növbəmizdə həmin informasiyaları təhlil edib Azərbaycan və Türkiyə diasporlarının gücünü bir araya gətirməklə əks-həmlələr etməliyik. Başqa sözlə desək, cənab Prezidentin tövsiyələrinə uyğun olaraq, müdafiədən hücum taktikasına üstünlük verməliyik. Ermənilərin bu təbliğatı yüz ildən çoxdur ki, davam edir. Ancaq bu gün Azərbaycan dövlətinin gücü, imkanları, beynəlxalq nüfuzu elə bir səviyyədədir ki, Ermənistanın istənilən təxribatının qarşısını ala bilir. Yəni indi inamla deyə bilərik ki, ümummilli lider Heydər Əliyevin qurduğu və ardıcıl həyata keçirdiyi uzaqgörən siyasətin nəticəsində, cənab İlham Əliyevin davamlı, yorulmaz fəaliyyəti sayəsində Azərbaycan az bir vaxtda sözün həqiqi mənasında çox böyük işlər görüb.

Bir fikri xüsusi vurğulamaq istəyirəm ki, Ali Baş Komandanımız İlham Əliyevin və rəşadətli Azərbaycan ordusunun 44 günlük müharibədə əldə etdiyi tarixi zəfər ermənilərin indiyədək formalaşdırdığı yalançı mifi darmadağın etdi. "Erməni mifi"nin dağılması elə "soyqırımı mifi"nin də dağılmasına gətirib çıxaracaq.

Düşünürəm ki, biz tək Azərbaycan və Türkiyə deyil, bütövlükdə dünyanın müxtəlif ölkələrində mövcud olan türkdilli xalqların diaspor təşkilatları ilə birgə fəaliyyət proqramı işləyib hazırlamaqla gücümüzü bir araya gətirməliyik. Təbii ki, bizim Avropada təşkil etdiyimiz Xocalı soyqırımı tədbirlərində Türk qardaşlarımız aktiv iştirak edirlər. Bu istiqamətdə koordinasiyamız getdikcə formalaşır. Əlbəttə, diaspor təşkilatlarımızın fəaliyyətinin koordinasiya olunması, türkdilli xalqları narahat edən məsələlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün işlək mexanizmlərin işlənilib hazırlanması çox yaxşı olardı.

**– Artıq 1 il 4 aydır dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlı Ermənistan üzərində qələbəmizin sevinc dolu anlarını yaşayır. Bunu həm də Xocalı qurbanlarının qisasının alındığı tarix hesab etmək olarmı?**

– Mənim üçün bütün uğurların zirvəsi Vətənimizin bütövlüyünün təmin olunması və torpaqlarımızın işğaldan azad edilməsi oldu. Tam səmimi deyim, həyatda nə qədər uğurlar əldə etsək də, torpaqlarımızın işğal altında olmasına görə başımız aşağı idi. Bu baxımdan Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun torpaqlarımızı işğal altından azad etməsi, dünyanın müxtəlif ölkələrində yaşayan 50 milyondan çox azərbaycanlının sınmış qururunu, tapdalanmış ruhunu bərpa etdi. 44 günlük Vətən müharibəsi 28 il işğal altında olan torpaqlarımızın, xüsusilə siyasi və strateji əhəmiyyət daşıyan Şuşa şəhərinin hərbi döyüşlərlə azad edilməsi ilə tarixi zəfərlə yekunlaşdı. Bu xoşbəxtliyi, bu qüruru bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev və qəhrəman Azərbaycan ordusu yaşatdı. İkinci Qarabağ müharibəsində şanlı ordumuz ermənilər üzərində əldə etdiyi qələbə ilə nisbətən Xocalı qurbanlarının qisasını da almış oldu. Amma bizim düşmən üzərində əsas qələbəmiz və faciə qurbanlarının qisasının alınması Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tam tanıdılması ilə başa çatacaq. Mən əminəm ki, biz gec-tez buna nail olacağıq.

Mən fürsətdən istifadə edib, xalqımıza bu qələbə sevincini yaşadan Prezident İlham Əliyevə, müzəffər ordumuza, cəsur əsgərlərimizə dərin minnətdarlığımı bildirirəm. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralı əsgərlərimizə şəfa diləyirəm.

**Müsahibəni apardı:**
**Möhsüm QƏDİROĞLU,**
**"Respublika" qəzetinin**
**Ukrayna və Şərqi Avropa ölkələri üzrə**
**xüsusi müxbiri.**